Ata Manaf oğlu Babayev
i.f.d., dos. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: babayevata1964@gmail.com
UOT:338.012:504.062.2; JEL:O14;Q57.

Yeni çağırışlar kontekstində Azərbaycanın neft sahəsində ekoloji-iqtisadi sistemin inkişaf problemləri

Xülasə

Tədqiqatın məqsədi – yeni çağırışlar kontekstində Azərbaycanın neft sahəsində ekoloji-iqtisadi sistemin inkişaf problemlərinin tədqiqidir. Bu məqsədlə müasir reallıqlardan yanaşmaqla, neft sahəsində ekoloji-iqtisadi sistemin mövcud problemlərinin mahiyyəti araşdırılmış və ümumiləşdirilmişdir. Yeni texnologiyaların geniş tətbiqi baxımından, ekoloji-iqtisadi sistemin mövcud mexanizmlərinin təkmilləşdirilməsi perspektivləri təhlil olunmuş və ümumiləşdirilmişdir. Azərbaycanda milli iqtisadiyyatın aparıcı sahəsi olan neft sahəsinin ekoloji-iqtisadi sisteminin inkişaf problemlərinin həll edilməsi üzrə təkliflər verilmiş və tövsiyələr hazırlanmışdır. Tədqiqatın metodologiyası – qismində təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarına üstünlük verilmişdir. Bundan əlavə, neft sahəsində ekoloji-iqtisadi sistemin inkişaf problemləri üzrə müxtəlif alim və tədqiqatçıların elmi-metodoloji yanaşmaları da nəzərə alınmışdır. Tədqiqatın tətbiqi əhəmiyyəti – məqalədə verilmiş nəticələrdən neft sahəsində ekoloji-iqtisadi sistemin mövcud mexanizmlərinin təkmilləşdirilməsi və bununla bağlı tədbirlərin görülməsi ilə izah olunur. Tədqiqatın nəticələri – yeni reallıqlar şəraitində neft sahəsində ekoloji-iqtisadi sistemin səmərəliliyinin artırılması və inkişaf etdirilməsi üzrə fəaliyyət strategiyasının hazırlanması və tətbiqi ilə əlaqəlidir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalənin yazılışı prosesində qoyulan problem üzrə məsələlərin araşdırılmasından irəli gələn materiallara daha çox yer verilmişdir və buna görə də tədqiqatın orijinallığı ilə bağlı şübhə yoxdur. Başlıca elmi yenilik isə qlobal transformasiyalar və yeni reallıqlar şəraitində Azərbaycanda neft sahəsində ekoloji-iqtisadi sistemin mövcud mexanizmlərinin təkmilləşdirilməsi və yenilənməsinin vacibliyi əsaslandırılmışdır. Ekoloji-iqtisadi sistemin milli iqtisadiyyatın və ümumilikdə ölkənin dayanıqlı inkişaf etdirilməsində rolu verilmişdir. Yaxın perspektivdə ölkəmizdə neft sahəsində ekoloji-iqtisadi sistemin inkişaf problemlərinin daha fərqli və səmərəli həlli üzrə yanaşmalar verilmişdir.

Açar sözləri: *Azərbaycan, neft sahəsi, ekologiya, iqtisadiyyat, ekoloji-iqtisadi sistem, ekoloji-iqtisadi sistemin inkişaf problemləri, neft sahəsinin sosial-iqtisadi əhəmiyyəti, ekoloji amillər, ekoloji dayanıqlılıq*

Giriş

Azərbaycan iqtisadiyyatında neft sənayesi ən vacib sahələrdən biridir. O, yanacaq, enerji və mədənçıxarma sahələrini özündə birləşdirən yanacaq-energetika kompleksinin tərkib hissəsidir. Neftə tələbat həmişə təklifi üstələyir, ona görə də dünyanın bir çox inkişaf etmiş ölkələri bizim neft sənayemizin inkişafında maraqlıdır. Neft sənayesi ixrac gəlirinin ən böyük hissəsini gətirir. Buna görə yeni çağırışlar kontekstində ölkənin inkişafı və iqtisadi sabitliyin qorunması üçün Azərbaycan neftinin dünya bazarında artım perspektivlərini nəzərə almaq prioritet məsələdir. Neft sənayesi ekoloji cəhətdən ən təhlükəli sahələrdən biridir. Yüksək yer tutumu, əhəmiyyətli çirklənmə qabiliyyəti, sənaye obyektlərinin yüksək partlayış və yanğın təhlükəsi ilə xarakterizə olunur. Quyuların qazılmasında, neftin çıxarılması və təmizlənməsində istifadə olunan kimyəvi reagentlər, o cümlədən hasil edilən karbohidrogenlər flora və fauna, eləcə də insanlar üçün zərərli maddələrdir. Əsas istehsal prosesləri yüksək təzyiq altında getdiyi üçün neft hasilatı qəzaların sayının artması ilə

təhlükəlidir. Sahə avadanlıqları və boru kəmərləri sistemləri aqressiv mühitlərdə işləyir. Qeyd edək ki, neft sənayesinin iri kompleksləri təbiətin demək olar ki, bütün komponentlərini (hava, su, torpaq, flora və fauna və s.) dəyişdirir. Ətraf mühitə mənfi təsir səviyyəsinə görə neft hasilatı sənaye sahələri arasında ilk yerlərdən birini tutur. Ətraf mühitin demək olar ki, bütün sahələrini, o cümlədən, atmosferi, litosferi, hidrosferi, yerüstü və yeraltı suları çirkləndirir.

Müasir dövrdə Azərbaycanın neft sahəsində ekoloji-iqtisadi sistemin inkişaf problemlərinin xüsusiyyətləri

Hazırkı şəraitdə neft sahəsində olan proseslərin və bu sahənin inkişafına yanaşamalrın təhlilindən baxsaq, birmənalı şəkildə qeyd etmək olar ki, əsas ekoloji çirkləndiricilərdən biri də neft sənayesidir. Neft sənayesi ətraf mühit üçün çox böyük təhlükələr daşıyır və müxtəlif səviyyələrdə mənfi nəticələrə səbəb ola bilər. Neft sənayesinin ən ümumi və təhlükəli nəticəsi neftin çirklənməsidir ki, bu da neft hasilatının elmi-tədqiqat fəaliyyətindən tutmuş emalına kimi, demək olar ki, bütün mərhələlərində fəaliyyətlə bağlıdır. Neft sənayesinin ətraf mühitə digər təsirləri istixana effektinin artması, turşu yağışları, suyun keyfiyyətinin aşağı düşməsi, yeraltı suların çirklənməsi, biomüxtəlifliyin itirilməsi və s. ilə özünü göstərir. Neft hasilatı prosesinin əsas elementlərindən biri qazmadır. Qazma prosesi zamanı yaranan tullantıların tərkibinə üzvi və qeyri-üzvi mənşəli maddələrin geniş spektri daxildir. Quyuların istismarı zamanı karbohidrogenlərin hasilatının intensivləşdirilməsi üçün müxtəlif turşuların, səthi aktiv maddələrin və s. konsentratlaşdırılmış məhlullardan istifadə olunur. Neft quyularının tikintisi zamanı xeyli miqdarda sənaye tullantılarının əmələ gəlməsi çox ciddi ekoloji problemdir [1, s.669]. Bütün bunlar yeni çağırışlar şəraitində Azərbaycanın neft sahəsində inkişaf problemlərinin həlli yollarının araşdırılmasını tələb edir. "Ekoloji-iqtisadi sistem" kateqoriyasının özü cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsinin mühüm tərkib hissəsidir. Məqsədi insanın və cəmiyyətin rifahının yüksəldilməsidir. Ekoloji-iqtisadi sistemin nəzəri-metodoloji əsasının formalaşması elmi istiqamət kimi iqtisadiyyatla ekologiyanın vəhdəti fonunda baş verir. Bu problemi daha ətraflı nəzərdən keçirmək üçün "iqtisadiyyat" və "ekologiya" anlayışlarının tərkib hissələrinə baxmaq lazımdır. Məhz insan, bu sistemin ən mühüm komponentlərdən biridir. Bu onunla bağlıdır ki, insan mühüm bioloji vahiddir və ona görə də təbii sistemin və müvafiq olaraq ekologiyanın bir hissəsini təşkil edir. Eyni zamanda o, sosial vahidin xassələrini və keyfiyyətlərini daşıyır və bu baxımdan insan həmin sistemin fəal üzvü hesab olunur. "İqtisadiyyat" və "ekologiya" anlayışları arasındakı əlaqədən danışarkən "cəmiyyət" və "təbiət" anlayışları arasındakı əlaqəni müəyyən etmək lazımdır. Fikrimizcə, tarixən təbii sistem ilk yaranıb, insan ondan çox sonra yaranıb. Bununla belə, qeyd etmək lazımdır ki, iqtisadi nəzəriyyədə "təbiət" və "cəmiyyət" anlayışları bir səviyyəli kateqoriyalar kimi öyrənilməli və təhlil edilməlidir. "Təbiət-cəmiyyət" sistemində qarşılıqlı əlaqənin real dünyasının ən düzgün və dolğun əks olunması üçün həm ekoloji (şaquli) və həm də iqtisadi (üfüqi) təhlil aparılmalıdır. "Təbiət-cəmiyyət" sistemində qarşılıqlı əlaqənin əsasını insan təşkil edir. Sosial sistemin bir hissəsi kimi "iqtisadiyyat"ı, təbii sistemin bir hissəsi kimi "ekologiya"nı eyni vaxtda birləşdirən və ayıran insandır. Ona görə də prioritet elmi vəzifə həm "insan-təbiət" sistemində, həm də "iqtisadiyyat-ekologiya" sistemində ziddiyyətlərin mənşəyi və təkamülünün öyrənilməsidir [2, s.30].

Ekoloji-iqtisadi sistemi dəyişdirən, onun mahiyyətini və fərdi xüsusiyyətlərini müəyyən edən hərəkətverici qüvvələr bu sistemin davamlılıq amilləridir. Onlar bütövlükdə sistemin inkişaf sürətini və istiqamətini müəyyən edirlər. Onların hamısı ekoloji, iqtisadi, sosial və institusional altsistemlərin fəaliyyətini müəyyən edir. Ekoloji-iqtisadi sistemin davamlılıq amillərinin hər bir növü bu sistemin müəyyən altsisteminin dayanıqlığını dəyişir, onun göstəricilər toplusuna təsir edir. Ekoloji-iqtisadi sistemin və onun altsistemlərinin dəyişməsinə

təsir edən amillər ayrı-ayrılıqda və bir-birindən asılı olmayaraq davamlılığa təsir göstərmir. Sıx əlaqə və asılılıq şəraitində əhəmiyyətli təsirə malik olurlar. Buna görə də ekoloji-iqtisadi sistemin davamlılıq amillərinin fərqləndirici xüsusiyyətləri onların qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığıdır. Bir-biri ilə qarşılıqlı əlaqədə olan alt sistemlər öz təsirlərini ümumiləşdirir və ekoloji-iqtisadi sistemin davamlılığını müəyyən edir. Ekoloji altsistemin davamlılığının amilləri regionun coğrafi mövqeyi və təbii şəraitidir. Bu amillər qrupu təkcə ekoloji altsistemin davamlılığının göstəricilərinə təsir etmir, həm də regionun iqtisadi və institusional inkişafı üçün şəraitin formalaşmasına təsir göstərir. Təbii şərait də ekloji-iqtisadi sistemin davamlılığına təsir göstərir. Təbii şərait davamlılığın belə xarakterik xüsusiyyətlərini müəyyən edir: sosial altsistem: əhalinin köçürülməsi, sanitar-epidemioloji vəziyyətin xüsusiyyətləri. iqtisadi altsistem: hasilat sənayesinin inkişafı, müəssisələrin yerləşdirilməsi və onların ekoloji-iqtisadi sistemin hüdudlarında cəmləşməsi. ekoloji sistem: təbii mühitin çirklənməsi nəticəsində bərpası dərəcəsi. Beləliklə, təbii şərait amili tullantıların və istehlak məhsullarının qəbulu, habelə sistemin zəruri təbii resurs materialları ilə təmin edilməsi ilə bağlı ekoloji-iqtisadi sistemin davamlılığının xüsusiyyətlərini müəyyən edir.

İqtisadi altsistemin davamlılığı investisiyaların həcmi və innovasiyalar ilə müəyyən edilir. İnnovasiyalar yüksək keyfiyyətli iqtisadi artımı təmin edən, istehsal proseslərinin səmərəliliyini artıran bazarda tələbat olan yeniliklərdir. Ekoloji-iqtisadi sistem üçün onu dəyişən şərtlərə uyğunlaşdıra biləcək innovasiyaların olması vacibdir. Beləliklə, innovasiyalar ekoloji-iqtisadi sistemin dayanıqlığının artırılmasına yönəlib. İnnovasiya ilə əlaqəli olan investisiya amilidir. İnvestisiyalar mənfəət əldə etmək məqsədi ilə iqtisadi alt sistemə uzunmüddətli vəsait qoyuluşudur. Ekoloji-iqtisadi sistemin davamlı inkişafı üçün bütün növ investisiyalar vacibdir. Demoqrafik vəziyyət də ekoloji-iqtisadi sistemə təsir göstərir. Demoqrafik vəziyyət dedikdə, müəyyən bir an və ya zaman dövründə demoqrafik proseslərin və əhalinin strukturunun vəziyyəti başa düşülür. Demoqrafik vəziyyət əhalinin həyat keyfiyyəti və səviyyəsinə, sanitar-epidemioloji vəziyyətə təsir göstərir. Demoqrafik vəziyyət əmək ehtiyatlarının keyfiyyətini və həcmini müəyyən etməklə iqtisadi altsistemin sabitliyinə təsir göstərir [3, s.133]. Ekoloji-iqtisadi sistemə bir çox amillər təsir edir. Amillər ekoloji-iqtisadi sistemdə və onun alt sistemlərində baş verən dəyişikliklərin hərəkətverici qüvvəsidir. Onlar altsistemlərin qarşılıqlı təsirinin xarakterini və istiqamətini müəyyən edir. Ekoloji-iqtisadi sistemin davamlılıq amilləri eyni vaxtda, lakin qeyri-bərabər fəaliyyət göstərir. Hər hansı bir sahənin davamlılıq amillərinin təsirini təhlil edərkən digər sahələrin oxşar sistemlərinin təsir dərəcəsini də nəzərə almaq lazımdır. Bu, ilk növbədə, ekoloji-iqtisadi sistemin dəqiq müəyyən edilmiş sərhədlərinin olmaması ilə əlaqədardır. Beləliklə, bu sistemin davamlılıq amilləri təkcə davamlılığın özünə deyil, həm də potensialına təsir göstərir.

Ekoloji-iqtisadi sistemin davamlılığını təmin etmək və gücləndirmək üçün xammal və material resurslarından istifadənin səmərəlilik məsələlərinə diqqətin daha da artırılması vacibdir. Məlumdur ki, kifayət qədər təbii resursa malik olan bəzi ölkələrdə elm və texnologiya zəif inkişaf etmişdir. Bu ölkələrdə ekoloji tələblərə və standartlara çox vaxt lazımi qaydada əməl olunmur və nəticədə daha böyük ekoloji təhlükələr yaranır. Odur ki, bu sistemin mövcud olan bütün aspektlərinin, xüsusilə də metodoloji yanaşmaların, maksimum məhsuldarlıq və səmərəlilik prinsiplərinə əsaslanan təsərrüfat mexanizmlərinin formalaşması və inkişafı ölkənin iqtisadi inkişafının əsas istiqamətlərdən ola bilər. Bu istiqamətlər xammal və material resurslarında səmərəli istifadə ilə yanaşı, ətraf mühitə dəyən ziyana qarşı sərt tədbirlərin görülməsini, sağlam düşüncə tərzini, bu məsələlərin təsərrüfat mexanizmləri ilə tənzimlənməsini tədbirlərini də əhatə etməlidir. Ölkədə enerji balansının optimal həcminin

formalaşdırılması üçün davamlı tədbirlər görmək, enerji resurslarından səmərəli istifadə strategiyasını hazırlamaq, ekoloji standartları yüksək səviyyəyə qaldırmaq lazımdır [4, s.47].

Yeni çağırışlar şəraitində Azərbaycanın neft sahəsində inkişaf problemlərinin həlli üçün, ilk növbədə, bu sahənin özünün xüsusiyyətlərini müəyyənləşdirmək lazımdır. Azərbaycanda istismarda olan neft yataqlarının təbii şəraitinin müxtəlifliyi müəyyən qədər neftqazçıxarma müəssisələrində əmək məhsuldarlığı, rentabellik, məhsul vahidinin maya dəyəri və digər iqtisadi göstəricilərin səviyyəsinin çoxcəhətliliyini müəyyən edir. Neft hasilatının təşkili üçün vacib kompleks işlər bu məqamları özündə ehtiva edir: geoloji kəşfiyyat, qazma işləri, yataqların istismarı məqsədilə yaxşılaşdırılması, yataqların istismarı. Neft yataqları istismar olunarkən bir sıra mühüm xüsusiyyətləri nəzərə alınmalıdır: Birinci xüsusiyyət təbii amillərlə bağlıdır. İstehsalın yuxarıda göstərilən mərhələlərinin hər birində əmək məhsuldarlığının səviyyəsinə və istehsalın rentabelliyinə təbii amillər, bəzi mərhələlərə isə digər amillər təsir göstərir. Digər sahələrdən fərqli olaraq, neft sənayesində səmərəliliyin səviyyəsi, o cümlədən elmi-texniki tərəqqinin səmərəliliyi istehsalın təbii şəraitindən asılıdır. Bu şərtlərin müxtəlifliyi neft sənayesi müəssisələrinin səviyyəsinin müxtəlifliyini müəyyən edir. Yataqların məhsuldarlığı və yerləşməsi, onların dərinliyi və investisiya şəraiti, neftin keyfiyyəti və s. istehsalatda istifadə olunan köhnə və yeni texnika və texnologiyaların maya dəyərinin və səmərəliliyinin səviyyəsini müəyyən edir. Dənizdə neft hasilatı da öz xüsusiyyətlərinə görə fərqlənir. Bu fərqlilik yüksək kapital qoyuluşu və əməliyyat xərcləri ilə bağlıdır. Bu xüsusiyyətlərdən ən əsasları aşağıdakılardır: dəniz dayaqlarının tikintisi və onların korroziyadan mühafizəsi; işçilərin daşınması üçün hava və dəniz nəqliyyatından istifadə; dəniz yataqlarının hidrometeoroloji şəraitdən asılılığı; dəniz işçilərinin yüksək maaşları. Neft sənayesinin ikinci xüsusiyyəti texniki və texnoloji amillərlə bağlıdır. Bu xüsusiyyət laylardan neftin orta illik çıxımı, hasil olunan mayenin sulaşma sürəti, su-neft amili, quyu fondu və onların yerləşməsi və digər amillərlə bağlıdır. Neft sənayesinin üçüncü xüsusiyyəti onun neft istehsalı zamanı yüksək enerji tutumululuğudur. Çünki, nefti quyunun dibindən quyu ağzına qaldırmaq üçün böyük miqdarda elektrik enerjisi, sıxılmış hava və ya qaz, buxar və s. tələb olunur. Neft hasilatı prosesinin dördüncü xüsusiyyəti neft quyularının istismarı zamanı müxtəlif üsullardan istifadəsi ilə bağlıdır. Neft sənayesinin altıncı xüsusiyyəti yeni avadanlıqların səmərəliliyinin kəşf edilmiş və çıxarıla bilən neft ehtiyatlarından istifadə səviyyəsindən asılı olmasıdır. Qeyd etmək lazımdır ki, neft emalı sənayesində əsas fondların istismar müddəti onların fiziki və mənəvi köhnəlməsindən, neft sənayesində isə yataqlarda mövcud ehtiyatların işlənməsindən asılıdır. Bu o deməkdir ki, yeni texnikanın tətbiqi nəzərə alınmaqla yekun nəticə aşkar edilmiş və çıxarıla bilən neft ehtiyatlarından istifadə dərəcəsindən asılıdır. Neft sənayesinin yeddinci əsas xüsusiyyəti yataqların təbii amillərinin zaman keçdikcə dəyişməsi ilə bağlıdır ki, bu da yeni texnika və texnologiyaların tətbiqi və effektivliyini qiymətləndirərkən nəzərə alınmalıdır. Yatağın işlənməsinin birinci mərhələsində yeni texnika və texnologiyadan istifadə yaxşı nəticələr verə bilər. Lakin yatağın işlənməsinin sonrakı mərhələlərində bu texnikadan istifadə istənilən nəticəni verməyə bilər; Səkkizinci xüsusiyyət layın hidrodinamik qüvvəsi hesabına neftin laydan quyuya daxil olması ilə bağlıdır. Lakin layda neft hasilatının sonrakı mərhələsində onun hidrodinamik möhkəmliyi, lay təzyiqi, neft axını və quyunun debiti azalır. Neft hasilatını stabilləşdirmək və layın təbii enerjisini bərpa etmək üçün neft layına su, qaz və s. vurulmalıdır. Neft hasilatının doqquzuncu xarakterik xüsusiyyəti onun məhsullarının təhlükəli olmasıdır. Bu məhsullar tez alışandır, kimyəvi tərkibinə görə bədənə keçə bilir. Həmçinin, yer qabığının təbii obyektlərinin böyük dərinliklərdə transformasiyalar törətməyə qadir olmasıdır. Neft hasilatının onuncu xüsusiyyəti onun bütün qurğuları, işlənmiş materialları, avadanlıqları,

mexanizmləri artan təhlükə mənbəyi olması ilə bağlıdır. Neft hasilatının on birinci xüsusiyyətinə gəlincə, onun obyektləri üçün kənd təsərrüfatından, meşə təsərrüfatından və ya digər istifadədən müvafiq torpaq sahələrini çıxarmaq lazımdır. Başqa sözlə, neft hasilatı böyük torpaq sahələrinin (çox vaxt yüksək məhsuldar torpaqlarda) alınmasını tələb edir. Nəhayət, neft sənayesinin on ikinci əsas xüsusiyyəti yatağın istismarının təşkilati-iqtisadi amilləri ilə bağlıdır. Bu amillərə canlı və maddiləşmiş əməyin səmərəli istifadəsi, təşkili, strukturu və quruluşu, istehsalın təşkili və idarə edilməsi səviyyəsi daxildir. Qeyd edilənləri ümumiləşdirsək, müasir çağırışlar şəraitində neft sahəsinin spesifik xüsusiyyətlərini nəzərə alaraq bu sənaye sahəsində investisiyalardan istifadə etməklə yeni inkişaf səviyyəsinin əldə edilməsi mümkündür. Neft sənayesində yeni texnika və texnologiyaların tətbiqi üçün yuxarıda göstərilən bütün şərtlər onun gələcək inkişafını müəyyən edir.

Yaxın perspektivdə Azərbaycanın neft sahəsində ekoloji-iqtisadi sistemin inkişaf istiqamətləri

Neft sənayesinin ekoloji-iqtisadi sisteminin inkişafı problemlərinin aşkarlanması və onların həlli neft yataqlarının mövcud istismarı və işlənməsi vəziyyətinin təhlili ilə sıx bağlıdır. Neft sahəsinə investisiya qoyarkən bütün bu xüsusiyyətlər nəzərə alınmalıdır. Deməli, real investor üçün neft yatağının hazırkı vəziyyəti, onun neft ehtiyatlarının həcmi, yataqda mövcud olan avadanlıqların, maşın və mexanizmlərin fiziki vəziyyəti kimi göstəricilər haqqında məlumatın olması çox vacibdir. Ekoloji-iqtisadi sistemin tarazlığının pozulması ölkədə böyük itkilərə gətirib çıxara bilər. Neft sahəsində ekoloji-iqtisadi sistemin vəziyyəti göstərir ki, neft hasilatının vergiyə cəlb edilməsi üçün effektiv mexanizmin yaradılmasının mühüm əhəmiyyəti vardır. Bu mexanizm neft hasilatı şəraitinin təbii diferensiasiyasını nəzərə almalıdır. Yeni neft yataqlarının və tükənmə dərəcəsi 80%-dən çox olan yataqların işlənməsi məqsədilə yaradılmış vergi güzəştləri təbii ki, neft sahəsinin inkişafı üçün zəruridir. Neft sahəsinin inkişaf prosesinin mərhələlərə bölünməsi istehsalın artım templərini fərqləndirməyə imkan verir. Bu proses dörd mərhələyə bölünür - erkən, yetkin, gecikmiş və son. Yataqların işlənmə mərhələsindən asılı olaraq vergitutmanı diferensiallaşdırmaq lazımdır. Bu, xüsusilə işlənmənin son mərhələsində olan yataqlara aiddir. Yatağın işlənmə mərhələsindən asılı olaraq aşağıdakı vergitutma rejiminin tətbiqi təklif olunur (cədvəl 1).

Cədvəl 1.

Yatağın işlənmə mərhələsindən asılı olaraq təklif olunan vergitutma rejimləri

İnkişaf mərhələsi	Mərhələlərin məzmunu	Yerin təkindən istifadəçinin iqtisadi riski	Tövsiyə olunan vergi rejimi
Erkən	Neft hasilatının artımı	Yüksək	Vergi tətilləri
Yetkin	İstehsalın sabitləşməsi	Qısa	İstehsalın gəlirliliyindən asılı olaraq differensial vergi
Gecikmiş	Neft hasilatının əhəmiyyətli dərəcədə azalması	Artan	Neft hasilatının rentabelliyindən və ehtiyatların tükənməsindən asılı olaraq differensiallaşdırılmış vergi
Son	Aşağı neft hasilatı ilə inkişaf	Yüksək	Neft hasilatı üzrə vergilərin sıfır dərəcəsinə qədər azaldılması

Əgər dövlət kiçik yataqların işlənməsi və çətin çıxarılan ehtiyatların əldə edilməsi üçün neft sənayesinə investisiyaların cəlb edilməsində maraqlıdırsa, vergitutma və tənzimləmə sistemini əhəmiyyətli dərəcədə təkmilləşdirməli, onları digər neft hasil edən ölkələrin oxşar sistemləri ilə rəqabətqabiliyyət apara bilmə səviyyəsinə çatdırmalıdır. Ölkənin mineral-xammal bazasının təkrar istehsalına yönəldilmiş büdcə ayırmalarından istifadənin səmərəliliyi təsərrüfat mexanizmlərinin və təşkilati tədbirlərin sürətli inkişafından asılıdır. Yerin təkinin geoloji öyrənilməsinin ilkin (proqnozlaşdırma və kəşfiyyat) mərhələlərində dövlətin əsas

məqsədi yüksək riskli olan neft sənayesinə özəl kapitalın daxil olması üçün cəlbedici şərait yaratmaqdır [6, s.82]. Yeni çağırışlar şəraitində Azərbaycanın neft sahəsinin inkişafı ilə bağlı problemlərin həlli üçün ölkədə fəaliyyət göstərən neft emalı müəssisələrinin yenidən qurulması və inkişafı, eləcə də yeni güclərin istifadəyə verilməsi mühüm istiqamətdir. Müasir şəraitdə karbohidrogenlərin istehsalında yeni texnologiyaların işlənib hazırlanması və tətbiqi ya xidmət şirkətlərinin təşəbbüsü, ya da iştirakı ilə baş verir. Dünya ticarəti üçün neft yüklərinin daşınması xidmətlərinin dəyəri və keyfiyyəti heç də az əhəmiyyət kəsb etmir. Sivilizasiyanın müasir inkişaf mərhələsində ekoloji problemlər bütün sferaları əhatə edir. İri şirkətlər də bu problemlərin həlli üzərində işləyir, bununla bağlı müvafiq idarəetmə və icra strukturlarını yaradırlar. Ekoloji strukturlar mənfəət əldə etmək üçün yaradılmasa da, onların bütün sistem üçün faydalı olması vacibdir. Buna görə də ətraf mühitin mühafizəsi ilə bağlı tədbirlərin həyata keçirilməsi, neftin istehsalı və emalı prosesləri nəticəsində ekoloji təhlükəsizlik problemlərinin həlli, ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, ətraf mühitə təsirin qiymətləndirilməsi və digər problemlərin həlli mühüm şərtlərdəndir [7, s.59].

Azərbaycanda neft sahəsində ekoloji struktur kimi SOCAR şirkətində yaradılmış Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi Departamentini nümunə kimi göstərə bilərik. Bu struktur həmin şirkət tərəfindən istehsal obyektləri tikilərkən və yenidən qurularkən əməyin mühafizəsi, sanitariya normalarının layihə sənədlərinə uyğun olunmasına və nəzərdə tutulmuş işlərin təhlükəsizlik norma və qaydalarının, standartlarının tələblərinə uyğun yerinə yetirilməsinə nəzarət həyata keçirir. Bu məqsədlə layihənin icrası müddətinin müxtəlif mərhələlərində tikinti-quraşdırma işləri aparılan tikinti obyektlərində müntəzəm monitorinqlər, əməyin mühafizəsi sahəsində aşkar edilmiş uyğunsuzluqları vaxtlı-vaxtında və yerindəcə aradan qaldırılması məqsədilə müvafiq tədbirlər həyata keçirir [8, s.86]. Qeyd edək ki, Azərbaycanda neft hasilatı əsasən SOCAR şirkəti tərəfindən həyata keçirilir. Yuxarıda göstərilən problemlərin həlli yolları kimi bunları qeyd etmək olar: Geoloji kəşfiyyat işlərinin genişləndirilməsi, yeni yataqların kəşfi, ehtiyatların yaradılması və karbohidrogen hasilatı sahələrində faydalı qazıntı ehtiyatlarının işlənilməsi. Neft hasilatı üçün yeni səmərəli texnologiyaların tətbiqi, gücləndirilmiş neftvermənin yeni üsullarının işlənib hazırlanması, layların işlənməsinin intensivləşdirilməsi. Çevik vergitutma sisteminin, şirkətin gəlirliliyindən asılı olaraq differensiallaşdırılmış vergi dərəcələrinin tətbiqi. Beynəlxalq əhəmiyyətli yataqların işlənməsi, neftin kəşfiyyatı və hasilatı üçün qabaqcıl texnologiyalara malik tərəfdaşların, xarici şirkətlərin axtarışı [9, s.73]. Azərbaycanda neft sahəsinin inkişafı üçün 2016-cı il 6 dekabr tarixli Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasının neft-qaz sənayesinin (o cümlədən kimya sənayesinin) inkişafına dair Strateji Yol Xəritəsi" mühüm əhəmiyyət kəsb edir. Həmin strateji yol xəritəsində ekoloji-iqtisadi problemlərin həllinə böyük diqqət yetirilmiş və həmin problemlərin həlli neft sahəsinin strateji məqsədlərindən olduğu müəyyənləşdirilmişdir [10]. Azərbaycanın dünyanın qabaqcıl dövlətinə çevrilməsi üçün neft sənayesinin inkişafının daxili bazara yönəldilməsi, neft-kimya istehsalı müəssisələrinin layihələndirilməsi və karbohidrogenlərin çıxarılmasına nəzarətin artırılması məqsədəuyğundur. Azərbaycan üçün neft sənayesinin inkişafının strateji məqsədləri maksimum və dayanıqlı iqtisadi effekti təmin edən neft hasilatı səviyyəsini saxlamaq, neft məhsullarına daxili tələbatı ödəmək və ixrac həcmini artırmaq üçün neft emalı və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi olmalıdır. Bütün bunlar neft sənayesinin davamlı inkişaf problemlərinin həllindən çox asılıdır. Azərbaycanda neft hasilatı və emalı ilə bağlı güclər daim modernləşdirilir, əsaslı təmir olunur, həmçinin əsas fondların yenilənməsi prosesi gedir. Lakin idarəetməni təkmilləşdirmədən köhnə texnologiya və avadanlıqların yenilənməsi

prosesi intensiv aparılması çətinləşəcəkdir ki, bu da həmin sistemin tarazlaşdırılmasında mühüm problem kimi qalacaqdır.

Nəticə

Beləliklə, hesab edirk ki, ekoloji-iqtisadi sistemin dayanıqlılığı müəyyən müddət ərzində bu sistemin altsistemlərinin inkişaf parametrlərinin tarazlıq vəziyyəti kimi qəbul edilməlidir. Sistem yanaşması kontekstində davamlılıq ekoloji və iqtisadi sistemin keyfiyyət xarakteristikası kimi görünür. Yeni çağırışlar şəraitində Azərbaycanın neft sənayesində yaranmış problemlərin həlli üçün bir qrup tədbirlərin həyata keçirilməsini vacib sayırıq: ölkəmizdə neft-qaz hasilatının səmərəliliyinin daha da artırılması, karbohidrogen resurslarından istifadənin dünya standartları səviyyəsində tənizmlənməsi məqsədilə, yerin təkindən istifadə qaydalarının təkmilləşdirilməsi tələb olunur; ekoloji-iqtisadi sistemin dayanıqlılığının gücləndirilməsi və bununla bağlı davamlı tədbirlərin görülməsi üçün neft sahəsində korporativ əlaqələrin genişləndirilməsi və korporativ məsuliyyətin artırılması tədbirləri görülməlidir; qlobal ekoloji problemlərin yumşaldılması, ekoloji-iqtisadi sistemin mövcud problemlərinin daha səmərəli şəkildə həll olunması üçün dünyanın iri neft şirkətləri arasında dialoqun intensivləşdirilməsi zəruridir; ölkəmizin neft sənayesində ekoloji-iqtisadi sistemin tarazlığının daha da sabitləşdirilməsi məqsədilə neft müəssisələrinin rəqabət qabiliyyətinin artırılması və müasir texnologiyalar əsasında inkişaf etdirilməsi tədbirlərinə ehtiyac vardır; Azərbaycanda neft sənayesində ekoloji-iqtisadi sistemə təsir edən mənfi amillərin aradan qaldırılması, ümumilikdə Bakı şəhərinin "ekoloji yastığı"nın yenidən formalaşdırılması, ətraf mühitə buraxılan tullantıların müasir texnologiyalar hesabına zərərsizləşdirilməsi məqsədilə uzun illərdir Səngəçalda (Qaradağ rayonu) yaradılması nəzərdə tutulan yüksək texnologiyalar əsaslı neftayırma və neftkimya kompleksinin tikilərək istifadəyə verilməsinin həll edilməsi strateji əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Никонов, А.Н. Нефтяная промышленность, как один из серьезных загрязнителей окружающей среды. Пожарная безопасность: проблемы и перспективы. – 2018. – Т. 1. – с. 666-673.
2. Аретова, Е.В. Методология формирования, моделирования и развития эколого-экономических систем / Е.В. Аретова, К.О. Литвинский // Экономика устойчивого развития. – 2015. – № 2(22).
3. Малышев, А.А. Факторы, влияющие на устойчивость эколого-экономической системы / А.А. Малышев, Н.Н. Солодков // Нива Поволжья. – 2014. – № 1(30). – С. 129-135.
4. Babayev, A.M. Qlobal çağırışlar baxımından neft sahəsində ekoloji-iqtisadi sistemin formalaşmasına və idarə edilməsinə strateji yanaşmalar. "Geostrategiya" jurnalı yanvar-fevral, 2019. №01 (49).
5. Babayev, A.M. Postpandemiya və postmüharibə dövründə ekoloji-iqtisadi sistemə yanaşmalar. Audit, – 2021. 1 (31), s.60-73.
6. Пайтаева, К.Т. Эколого-экономический анализ деятельности предприятий нефтегазовой отрасли. Terra economicus, 2012. Том 10, № 4 Часть 2, с.80-83.
7. Hacızadə, E.M. Neft-qaz sektorunun inkişafının iqtisadi artıma təsirinin qiymətləndirilməsi. Azərbaycanın vergi jurnalı, 2/2012, s.49-86.
8. SOCAR. İllik Hesabat – 2020. https://socar.az/socar/assets/documents/az/socar-annual-reports/illik-hesabat-2020.pdf.
9. Мзедави, С.К. Методологические аспекты исследования мировых рынков нефтепродуктов / С.К. Мзедави, А.О. Лобовиков // Актуальные проблемы экономики и управления на предприятиях машиностроения, нефтяной и газовой промышленности в условиях инновационно-ориентированной экономики. – 2021. – Т. 1. – с. 67-75.
10. Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 6 dekabr 2016-cı il.

Ata Manaf oglu Babaev

Проблемы развития эколого-экономической системы нефтяной сферы Азербайджана в контексте новых вызовов

Резюме

Цель исследования - изучение проблем развития эколого-экономической системы нефтяной сферы Азербайджана в контексте новых вызовов. Для этого исследована и обобщена суть современных проблем

эколого-экономической системы нефтяной сферы, исходя из современных реалий. С точки зрения широкого применения новых технологий проанализированы и обобщены перспективы совершенствования существующих механизмов эколого-экономической системы. Внесены предложения и даны рекомендации по решению проблем развития эколого-экономической системы нефтяной сферы, являющейся ведущей отраслью народного хозяйства Азербайджана. Методология исследования – что касается методологии исследования, то при написании статьи предпочтение отдавалось методам анализа, синтеза, сравнения и обобщения. Кроме того, учитывались научно-методические подходы различных ученых и исследователей к проблемам развития эколого-экономической системы нефтяной сферы. Практическая значимость исследования – полученные результаты, приведенные в статье, опираются на совершенствование существующих механизмов эколого-экономической системы нефтяной сферы и принятие соответствующих мер. Результаты исследования – связаны с подготовкой и реализацией стратегии действий по повышению и развитию эффективности эколого-экономической системы нефтяной сферы в условиях новых реалий. Оригинальность и научная новизна исследования – заключается в возникших в результате исследования вопросах по исследуемой проблеме. Главная научная новизна заключается в важности совершенствования и обновления существующих механизмов эколого-экономической системы нефтяной сферы Азербайджана в условиях глобальных преобразований и новых реалий. Приведена роль эколого-экономической системы в устойчивом развитии национальной экономики и страны в целом. Предложены пути решения проблем развития эколого-экономической системы нефтяной сферы в нашей стране в ближайшем будущем.

Ключевые слова: *Азербайджан, нефтяная сфера, экология, экономика, эколого-экономическая система, проблемы развития эколого-экономической системы, социально-экономическое значение нефтяной сферы, экологические факторы, экологическая устойчивость.*

Ata Manaf Babayev

Development problems of the ecological-economic system in the oil field of Azerbaijan in the new challenges context

Summary

Purpose of the research –is a study of the development problems of the ecological-economic system in the oil field of Azerbaijan, in the context of these new challenges. Therefore, the essence of the existing problems of the environmental-economic system in the oil field was investigated and summarized by considering present realities. Taking into account the wide application of new technologies, the perspectives of improving the existing mechanisms of the ecological-economic system were analyzed and outlined. Proposals and recommendations were made solve the development problems of the ecological-economic system of the oil field, which is the leading field of the national economy in Azerbaijan. Research methodology – analysis, synthesis, comparison and generalization methods were preferred in this part. Additionally, the scientific-methodological approaches of various scientists and researchers on the development problems of the ecological-economic system in the oil field were also considered.The practical significance of a research – the results given in the article can be useful in improving the existing mechanisms of the ecological-economic system in the oil field and taking adequate measures. The results of the research –are related to the preparation and implementation of the action plan for increasing and developing the efficiency of the environmental-economic system in the oil field under present conditions.The originality and scientific novelty of the research - in the process of writing the article, more space was given to the materials obtained from the investigation of the issues on the considered problem, and therefore there is no doubt about the originality of the research. As the main scientific novelty, in the conditions of global transformations and new realities, the importance of improving and renewing the existing mechanisms of the ecological-economic system in the oil field in Azerbaijan was substantiated. The role of the ecological-economic system in the sustainable development of the national economy and the country in generally was presented. In the short term, various and effective solutions to the development problems of the environmental-economic system in the oil field in our country were provided.

Keywords*: Azerbaijan, oil field, ecology, economy, ecological-economic system, development problems of ecological-economic system, socio-economic importance of the oil field, ecological factors, ecological sustainability.*

Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov
Daxil olub: 11.07.2022.
Çapa qəbul olunub: 18.07.2022.